# Təbii fəlakətə dini baxış: Allahın nişanələrindən biri - zəlzələ!

**Dinlə bağlı yazıları maraqla oxuyuram. Bir dəfə belə bir məlumatla da rastlaşmışdım:"Xristianlıq Haitidə üstünlük təşkil edən dinlərdən biridir, lakin 2010-cu ildə 300 min nəfərin həlak olması ilə nəticələnən zəlzələdən sonra İslam dinini qəbul edənlərin sayı nəzərəçarpacaq dərəcədə artdı. Haiti paytaxtı Port-Princedə indi ən az beş məscid var. İki uşaq anası olan məktəb müəlliməsi Darlin Derosier öz qonşuluğundakı məscidin tikintisinə yardım edib. Zəlzələ nəticəsində onun öz evini itirməsi və bundan bir ay sonra həyat yoldaşını itirməsindən sonra o, İslam dininə tapınıb:"Mənim üçün qələbə qazanmaq, inanmadığıma baxmayaraq sağ qalmaqdır." - deyə o bildirib. O, hətta qeyd edir ki, zəlzələnin ardınca İslam insanların həyatında yol göstərməklə ona çox kömək etmişdir.**

### *Müqəddəs Qurani-Kərimdə "Zəlzələ" surəsi: Yer üzünün yükünü boşaltması*

"Zəlzələ" "Quran"ın 99 - cu surəsidir və 8 ayədən ibarətdir:" Yer titrəyib lərzəyə gəldiyi zaman. Yer öz yükünü bayıra atacağı və insan: "Ona nə olub? " - deyəcəyi zaman , həmin gün yer öz əhvalatlarını danışacaqdır. Çünki Rəbbin ona vəhy edəcəkdir. O gün insanlar əməllərininonlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən (əvəzini) alacaqdır. Zərrə qədər pislik edən də (əvəzini) alacaqdır".

Ərəb dilində "zilzal" sözü zəlzələ, təkan, "əskələha" sözü isə "ağır yük" mənasını verir. Yuxarıdakı ayələrin ilkin mənasını düşündükdə zəlzələ ilə bağlı mühüm elmi həqiqətə diqqət çəkildiyini görürük.

"Zəlzələ" surəsinin 2-ci ayəsində zəlzələ ilə bağlı yerin yükünü bayıra atmasından bəhs edilir. Son əsrlərdə aparılan tədqiqatlar nəticəsində yerin mərkəzində ağır metalların olduğu və yer üzündəki təkanlarla bu metalların üzə çıxdığı məlum olub. Geoloqların fikrincə, yer soyuduqca sıxlığı çox olan ağır maddələr yerin mərkəzinə çöküb, yüngül maddələr isə yuxarı səthə qalxıb. Odur ki, yer qabığı ən yüngül maddələrdən (bazalt və qranit süxurlardan) ibarətdir, nüvədə isə ağır metallar (nikel və dəmir) var. Nəticədə, ərimiş metallardan ibarət yerin daxili təbəqəsi yerin üst təbəqəsindən daha ağır, sıx maddələrdən təşkil olunub.





Zəlzələ olduqda isə yerin altındakı ağır maddələr üzə çıxır, beləcə, ayələrdə bildirildiyi kimi, yer üzü ağır yükünü bayıra atır. Bundan əlavə, metal yataqları ən çox zəlzələ və vulkanların daha çox baş verdiyi bölgələrdə yerləşir. Hərtərəfli tədqiqatlar nəticəsində yaxın keçmişdə üzə çıxan bu elmi faktlar Allahın "Quran"da işarə etdiyi elmi həqiqətlərdən biridir.

### *Zəlzələnin təbii və mənəvi təsirləri*

Muhəmməd ibni Süleyman nəql edir: "İmam Sadiqdən (ə) soruşdum: "Zəlzələ nədir?". Həzrət (ə) buyurdu: "Allahın nişanələrindən biridir".

Soruşdum: "Bəs səbəbi nədir?".

Buyurdu: "Allah torpağın damarlarına mələyi məmur etmişdir və torpağı titrətmək istəyən zaman ona əmr edər ki, filan damarı hərəkətə gətirsin. Həmin damar hərəkət edən zaman o damara aid olan torpağın hissəsi titrəyər".

Hər kəs zəlzələnin nə olduğunu az və ya çox şəkildə bilir. Bilir ki, bu təbii hadisə ardınca dağıntılar və fəlakətlər, ölümlər gətirər. Hər kimin Allaha və axirətə imanı vardır, yaxşı bilir ki, bu dünyada baş verən hər bir hadisənin səbəbləri vardır. Allahın rizası və qəzəbi vardır. Onun riza və qəzəbinin səbəbi də insanların əməlində gizlənmişdir.

Ona görə də deyə bilərik ki, zəlzələnin təbii təsirləri olduğu kimi, mənəvi təsirləri də vardır. Bəşər üçün belə hesab olunur və bu bəlanın əsil səbəbi - günahdır.

**Ayətullah Müctehidi Tehrani buyurur: "Yerin titrəməsinin səbəbi - günahların artmasıdır. O ölkədə ki, zina artar, orada Allahın əmri ilə mələk yeri tərpədər". (Tebyan)**

**Həzrət Peyğəmbər buyurur: "Nə zaman mənim ümmətimdə bu sifətlər zahir olar, Allah onları cəzalandırar:**

**Nə zaman duanı az etsələr - bəla nazil olar.**

**Nə zaman sədəqəni tərk etsələr - xəstəliklər artar.**

**Nə zaman zəkatı tərk etsələr - dördayaqlılar ölər.**

**Nə zaman hakim zülm edər - yağışın yağması qadağan olar.**

**Nə zaman aralarında zina artar - ani ölüm artar.**

**Nə zaman riba (sələm və faiz-Ə.R) artar - zəlzələ çoxalar.**

**Nə zaman Allahın nazil etdiyinin əksinə hökm verərlər - düşmənləri onlara hakim olar.**

**Nə zaman əhdə vəfa etməsələr - Allah onları qətlə düçar edər.**

**Nə zaman çəkidə aldatsalar - Allah onları qəhətlik və quraqlıq ilinə alar".**

Həzrət (s) sonra bu ayəni tilavət edir: "İnsanların öz əlləri ilə etdikləri (böyük günahlar) üzündən suda və quruda fəsad (zəlzələ, tufan, qıtlıq, xəstəlik, müharibə, qətl, əmniyyətsizlik) aşkar olur. Bununla (Allah) onlara etdiklərinin bəzisini daddırır ki, bəlkə Allaha tərəf qayıtsınlar". ("Rum" 41).

### *Bu da bir vacibat - Ayət namazı*

Adətən zəlzələ baş verən məqamda ibadətlə məşğul olanlar ayət namazı qılırlar  Müqəddəs Qurani-Kərimdə ayrıca "Zəlzələ surəsi" var və bu təhlükəli məqamlarda həmin surə dərhal yada düşür.

Ayət namazı vacib namazlardan biridir. Ayət namazı Günəş və Ay tutulduğu, zəlzələ, yaxud insanların qorxmasına səbəb olan bu kimi təbiət hadisələri baş verən zaman qılınmalıdır. Əgər eyni gündə həm günəş tutularsa, həm də zəlzələ baş verərsə, onların hər biri üçün ayrı-ayrılıqda Ayət namazı qılmaq lazımdır. Ayət namazı hadisənin canlı şahidi olanlara vacib olur. Yaxşı olar ki, Ayət namazı hadisə baş verəndə qılınsın.Vaxtı keçdikdə isə qəza niyyəti ilə namaz qılmaq lazımdır.

Ayət namazı iki rükət qılınır. Niyyət etdikdən sonra Həmd və İxlas surələri oxunur, rüku yerinə yetirilir, sonra rükudan qalxıb yenidən Həmd və İxlas surələri təkrar oxunur və bu əməl beş dəfə təkrar olunur. Beşinci rükudan sonra iki səcdə yerinə yetirilir. İkinci rükət də eyni qaydada təkrar olunur, təşəhhüd və salamlarla sona çatdırılır.

Sonda bu qərara gəldim ki, təbii fəlakətlər insan oğlunun günahlarının bədəlidir. Bəs, əziz oxucularımız nə düşünür?

**Əntiqə Rəşid**

Ədalət.- 2020.- 28 yanvar. S. 8.